**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 87 saylı Ağsu-İsmayıllı seçki dairəsindən Kürtmaşı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Bağırlı Vahid Veysəl oğlu, Bağırlı Xalid Veysəl oğlu və Qədirov Nizami Qədir oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 8 yanvar 2015-ci il tarixli 148 saylı müraciəti üzrə**

**R Ə Y İ**

**Bakı şəhəri** **9 yanvar 2015-ci il**

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 87 saylı Ağsu-İsmayıllı seçki dairəsindən Kürtmaşı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Bağırlı Vahid Veysəl oğlu, Bağırlı Xalid Veysəl oğlu və Qədirov Nizami Qədir oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 8 yanvar 2015-ci il tarixli 148 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 87 saylı Ağsu-İsmayıllı seçki dairəsindən Kürtmaşı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Bağırlı Vahid Veysəl oğlu, Bağırlı Xalid Veysəl oğlu və Qədirov Nizami Qədir oğlunun 2015-ci il yanvarın 8-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək 87 saylı Ağsu-İsmayıllı seçki dairəsinin 60 saylı məntəqəsində səsvermə günü qanun pozuntularının olduğunu və bununla bağlı şikayət ərizəsinin araşdırılmasına dair həmin dairə seçki komissiyasının 29 dekabr 2014-cü il tarixli 71/29 saylı qərarının əsassız olduğunu iddia etmiş və seçkinin nəticələrinin ləğv edilməsini xahiş etmişlər.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də müraciət həmin şəxslərə geri qaytarılmalıdır.

Seçki Məcəlləsinin 112.1 maddəsinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.12-ci və 7.10.1-ci bəndlərinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın ərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət verə bilər o cümlədən şikayət buna hüququ olan şəxs tərəfindən verilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin

verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 87 saylı Ağsu-İsmayıllı seçki dairəsindən Kürtmaşı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Bağırlı Vahid Veysəl oğlu, Bağırlı Xalid Veysəl oğlu və Qədirov Nizami Qədir oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 8 yanvar 2015-ci il tarixli 148 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçilərə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saat müddətində dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov